# İNKLÜZİV TƏHSİL MÜHİTİNDƏ GƏLƏCƏK KADRLARIN PEŞƏ SƏRİŞTƏLƏRİNİN FORMALAŞDIRILMASI



**Səbinə Cəfərova,**
*Bakı Slavyan Universitetinin Pedaqogika kafedrasının müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: sabina_16_86@mail.ru*
*https://doi.org/10.30546/2706-7858.2026.2.3014*

**UOT:** 37

**Xülasə**. *Məqalədə gələcək müəllimlərin xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqlarla işləmək bacarıqları araşdırılır və bu sahədə peşəkar kompetensiyaların formalaşdırılmasının cəmiyyət və dövlət üçün vacib məsələ olduğu vurğulanır. İnklüziv təhsil sağlamlıq imkanları məhdud uşaqların məktəb sisteminə inteqrasiyasını və sosiallaşmasını təmin edir. Gələcək mütəxəssislərin inklüziv siniflərdə işləyərkən yüksək peşəkar kompetensiyalara yiyələnməsi onların həm nəzəri biliklərə, həm də praktik bacarıqlara sahib olmasını tələb edir. Bura fərdi yanaşma metodlarının mənimsənilməsi, tədris planlarının inklüziv prinsiplərə uyğun adaptasiyası, həmçinin uşaqların sosial və emosional inkişafını dəstəkləyən strategiyaların tətbiqi daxildir. Gələcək müəllimlərin yüksək peşəkar hazırlığı sistemində ən vacib məqsəd yalnız tələbələrin pedaqoji biliklərə yiyələnməsi üçün əlverişli şəraitin yaradılması ilə məhdudlaşmamalıdır. Bu proses, eyni zamanda onların yaradıcı potensialının, innovativ düşüncə qabiliyyətinin və yeni pedaqoji ideyalar irəli sürmək bacarığının məqsədyönlü şəkildə inkişaf etdirilməsini nəzərdə tutmalıdır.*

*Məqalədə sağlamlıq imkanları məhdud uşaqlarla işləmək üçün tətbiq olunan texnologiya, metodik yanaşmalar əsaslandırılır və gələcək kadrların inklüziv siniflərdə işləməsi üçün onların inklüziv təhsil mühitinə hazırlığının vacib rol oynadığı qeyd olunur.*

***Açar sözlər:*** *inklüziv, təhsil, cəmiyyət, inkişaf, inteqrasiya, tərbiyə.*
***Keywords:*** *inclusive, education, society, development, inteqration, upbringing.*
***Ключевые слова:*** *инклюзивный, образование, общество, развитие, интеграция, воспитание.*

İnklüziv təhsil sistemi bütün təhsil pillələrini və səviyyələrini əhatə etməklə həm fiziki məhdudiyyəti olan, həm də olmayan şəxslərin bərabər təhsilalma hüquqlarını təmin edir. Bu yanaşma cəmiyyətdə sosial ədalət və bərabərliyin qorunmasına şərait yaradır və təhsilin universal prinsiplərinə uyğun olaraq hər bir təhsilalanın inkişaf imkanlarını təmin edir. İnklüziv təhsil bütün təhsilalanların hər hansı bir sahədə güclü və zəif cəhətlərindən asılı olmayaraq, məktəbin tərkib hissəsinə çevrilməsini, eyni hüquqlara malik olmasını, eyni sinif

otaqlarında təhsil almasını və dərslərdə bərabər iştirak etməsini təmin edir.

1994-cü ildə qəbul edilmiş “Salamanka” Bəyannaməsi sağlamlıq imkanları məhdud olan uşaqların təhsil hüquqlarına dair beynəlxalq prinsipləri təsbit etmiş və vurğulanmışdır ki, bu uşaqlar “mümkün olan bütün hallarda birlikdə təhsil almalıdırlar” [2, s.11]. Eyni zamanda “hamı üçün məktəb” prinsipi prioritet vəzifə kimi təqdim olunur və bu yanaşma inklüziv təhsilin yaradılmasını və ya inteqrasiya olunmuş təhsil modelinin tətbiqini nəzərdə tutur. Belə ki, inteqrasiya olunmuş təhsil sistemində məktəb və təhsil proqramları saqlamlıq imkanları məhdud olan uşaqların fərdi ehtiyaclarına uyğun olaraq adaptasiya edilir, onların sosial və akademik inkişafına optimal şərait yaradılır.

Ölkəmizdə aparılan demokratik islahatlar və cəmiyyətə inteqrasiya prosesi təhsil sahəsində, xüsusilə sağlamlıq imkanları məhdud şəxslərin təhsilinə yanaşmada əhəmiyyətli dəyişikliklərə yol açmışdır. Bu dəyişikliklər nəticəsində cəmiyyət sağlamlıq imkanları məhdud uşaqların təhsil prosesinə daha geniş şəkildə inteqrasiya olunmasının vacibliyini dərindən dərk etməyə başlamışdır.

Məktəb təhsilində bu yanaşma hər bir uşağın tam və keyfiyyətli təhsil almasını təmin etməyə, onların təhsil müəssisəsinin inteqrativ təhsil prosesinə aktiv cəlb olunmasına, eləcə də müxtəlif inkişaf xüsusiyyətlərinə malik uşaqların fərdi imkanlarına uyğun olaraq təhsil standartlarını mənimsəməsinə yönəldilmiş çoxsaylı tədbirlər vasitəsilə reallaşdırılmışdır. Bu tədbirlər bərabər təhsil imkanlarının təmin olunmasını, inklüziv və inteqrasiya olunmuş təhsil mühitlərinin formalaşdırılmasını və uşaqların sosial, emosional və intellektual inkişafının stimullaşdırılmasını hədəfləyir.

Belə yanaşma yalnız hüquqi və institusional dəyişikliklərlə məhdudlaşmayıb, həm də pedaqoji konsepsiyalarda və təhsil proqramlarının tərtibatında əsaslı islahatlara yol açmışdır. Bu məqsədlə 2005-ci ildən etibarən İnklüziv təhsil layihəsinin icrasına başlanılmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 fevral tarixli Qərarı ilə “Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005–2009-cu illər)” təsdiq edilmişdir.

Layihənin məqsədi təhsil siyasətində humanist prinsiplərin gücləndirilməsinə, bərabər imkanların təmin edilməsinə və cəmiyyətin hər bir fərdi üçün inklüziv təhsil mühitinin formalaşmasına xidmət etməkdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsil sisteminə inteqrasiyası onların sosial və intellektual potensialının tam inkişaf etdirilməsinə şərait yaradır və ümumilikdə təhsil sisteminin keyfiyyətini artırır. Hazırda sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinə bu cür yanaşma onların adi ümumtəhsil məktəblərində təhsil almalarını əsas prinsip kimi qəbul edir. Bu yanaşma inklüziv təhsilin əsas məqsədini – bütün uşaqların, fərqli inkişaf xüsusiyyətlərinə malik olanların da təhsil sisteminə bərabər şəkildə inteqrasiyasını təmin etməyi ön plana çıxarır. Belə bir təhsil modelində gələcək müəllimlərin və peşəkar təhsil işçilərinin hazırlanması yalnız pedaqoji biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, həm də yeni metodoloji yanaşmaların tətbiqini də nəzərdə tutmalıdır. Bu yanaşmalar müəllimlərə sağlamlıq imkanları məhdud uşaqlarla işləmək bacarıqlarını inkişaf etdirməyə, onlara tədris prosesini təşkil etməyə və inklüziv mühitin yaradılmasını təmin etməyə imkan verir.

Ümumtəhsil məktəblərində inteqrasiya və inklüziya ideyalarının uğurlu tətbiqi müəllim və digər pedaqoji heyətin peşəkarlıq səviyyəsindən, onların inklüziv təhsilə hazır olmasından asılıdır. Bu isə gələcək müəllimlərin hazırlanması prosesində fundamental dəyişikliklərin həyata keçirilməsini zəruri edir. Belə ki, pedaqoji hazırlıq proqramları tələbələrin inklüziv təhsil prinsiplərini mənimsəməsinə, müxtəlif təhsil ehtiyacları olan uşaqlarla effektiv işləmə bacarıqlarını inkişaf etdirməsinə yönəlməli, eyni zamanda onların sosial, psixoloji və etik kompetensiyalarını gücləndirməlidir. Deməli, inklüziv təhsilin uğurlu tətbiqi yalnız uşaqların təhsilinə deyil, həm də cəmiyyətin sosial ədalət və bərabərlik prinsiplərinə uyğun formalaşmasına xidmət edir. Bu isə gələcək müəllimlərin peşəkar hazırlanmasında inklüziv təhsil kompetensiyalarının sistemli və metodik şəkildə inkişaf etdirilməsinin vacibliyini bir daha vurğulayır.

Gələcək müəllimlərin sağlamlıq imkanları məhdud şagirdlərlə işləməyə hazırlanması pedaqoji ali

təhsil müəssisələrinin və ümumilikdə pedaqoji təhsilin prioritet vəzifələrindən biri hesab olunur. Aparılmış tədqiqatlar göstərir ki, gələcək müəllimlər sağlamlıq imkanları məhdud uşaqlarla işləməyə və onların ailələri ilə effektiv əməkdaşlıq qurmağa yetərincə hazır deyillər. Belə ki, müasir müəllimlərin pedaqoji hazırlığında bir sıra boşluqların mövcudluğu bunları bir daha göstərir. Bu boşluqlar arasında inklüziv təhsilin mahiyyətinin kifayət qədər anlaşılmaması, sağlamlıq imkanları məhdud uşaqların təlimində şəxsi tərbiyənin rolunun yetərincə qiymətləndirilməməsi, aşağı diaqnostik və analitik mədəniyyət səviyyəsi, habelə psixoloji-pedaqoji metodların köhnəlməsi əsas yerləri tutur. Bu çatışmazlıqlar gələcək müəllimlərin inklüziv təhsil kontekstində peşəkar fəaliyyətinə təsir göstərərək onların uşaqların fərdi inkişaf xüsusiyyətlərinə uyğun tədris və tərbiyə fəaliyyətini səmərəli təşkil etməsini çətinləşdirir.

Hazırda təhsil sahəsində yeni bir paradiqmanın tətbiqi, gələcək müəllimlərin hazırlanmasında kompetensiyaəsaslı sistemli yanaşmanın formalaşdırılması zərurəti aktuallaşmışdır. Bu yanaşma ali təhsil müəssisələrində pedaqogika kurslarının və pedaqoji praktikaların nəzəri biliklərlə praktik fəaliyyətin inteqrasiyasını təmin edəcək şəkildə qurulmasına yönəlməlidir. O.L.Juk qeyd edirdi ki, klassik ali təhsil müəssisələrində tələbələrin pedaqoji hazırlığı "gələcək mütəxəssislərin şəxsi inkişafı və yüksək peşəkarlığının formalaşması üçün yüksək səmərəli vasitədir" və bu proses tələbələrin psixoloji-pedaqoji kompetensiyalarını mənimsəməsi ilə reallaşdırılır [17, s.296]. Göründüyü kimi, gələcək müəllimlərin yüksək peşəkar hazırlığı sistemində ən vacib məqsəd yalnız tələbələrin pedaqoji biliklərə yiyələnməsi üçün əlverişli şəraitin yaradılması ilə məhdudlaşmamalıdır. Bu proses, eyni zamanda onların yaradıcı potensialının, innovativ düşüncə qabiliyyətinin və yeni pedaqoji ideyalar irəli sürmək bacarığının məqsədyönlü şəkildə inkişaf etdirilməsini nəzərdə tutmalıdır. Yaradıcı fəallığın formalaşdırılması müəllimin pedaqoji fəaliyyətində humanist dəyərlərin – mənsubiyyət hissinin, dialoqa açıqlığın, qarşılıqlı anlaşmanın və uşağın şəxsiyyət kimi tərbiyə olunmasının əsas götürülməsinə imkan yaradır.

Müəllimin ümumpeşəkar kompetentliyi kontekstində onun humanist həyat mövqeyinin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Belə bir mövqe müəllimin peşəkar fəaliyyətinin ideya-məzmun əsasını təşkil edir, onun təlim-tərbiyə prosesində təhsilalana fərdi yanaşmasını, etik məsuliyyətini və sosial həssaslığını müəyyənləşdirir. Nəticə etibarilə humanist həyat mövqeyi gələcək müəllimi yalnız bilik ötürən mütəxəssis kimi deyil, eyni zamanda şəxsiyyətyönümlü, sosial məsuliyyət daşıyan və yüksək peşəkarlığa malik pedaqoq kimi xarakterizə edən əsas səciyyəvi xüsusiyyətlərdən biri kimi çıxış edir. Bu baxımdan bir tərəfdən inklüziv təhsil konsepsiyasına dair biliklərin universitetlərdə pedaqogika fənlərinin məzmununa məqsədyönlü şəkildə inteqrasiya edilməsi zəruridir, digər tərəfdən isə seminar məşğələləri və pedaqoji təcrübə prosesində xüsusi təhsil ehtiyacları olan uşaqlarla işləmək üçün tələbələrin peşəkar kompetensiyalarının formalaşdırılmasına müstəsna dərəcədə diqqət yetirilməlidir. Bu yanaşma inklüzivliyin müəllim hazırlığı sistemində yalnız nəzəri biliklərlə məhdudlaşmadığını, eyni zamanda hazırlıq prosesinin məzmununda, pedaqoji yanaşmalarında, strukturunda və strategiyalarında əsaslı dəyişikliklər və modifikasiyalar aparılmasını tələb etdiyini göstərir. Eyni zamanda bu proses inklüziv təhsilin tətbiqi zamanı meydana çıxan çoxşaxəli problemlərin həlli üçün çevik və əsaslandırılmış qərarların qəbulunu da nəzərdə tutur. Bu xüsusda əsas məsələ hər bir tşagirdin mövcud təhsil sisteminə mexaniki şəkildə inteqrasiyası deyil, əksinə, təhsil sisteminin özünün elə transformasiyasıdır ki, bütün təhsilalanlar fərdi xüsusiyyətlərindən asılı olmayaraq bu mühitdə özlərini təhlükəsiz, dəyərli və qəbul olunmuş hiss etsinlər.

İnklüziv təhsil şəraitində təlim-tərbiyə prosesinin fərdiləşdirilməsi çoxkomponentli və sistemli yanaşma tələb edir. Bu yanaşma kurikulumların təhsilalanların fərdi inkişaf xüsusiyyətlərinə və təhsil ehtiyaclarına uyğun şəkildə adaptasiya olunmasını, təlim prosesində innovativ və diferensiallaşdırılmış pedaqoji metod və texnologiyalardan istifadənin təmin edilməsini, habelə bütün şagirdlər üçün əlçatan və dəstəkləyici təhsil mühitinin formalaşdırılmasını əhatə edir. Belə bir mühit yalnız akademik nailiy-

yətlərin deyil, eyni zamanda təhsilalanların sosial, emosional və kommunikativ bacarıqlarının inkişafına yönəlmişdir [10, s.31]. Bu cür kompleks yanaşmanın tətbiqi hər bir şagirdin fərdi potensialının maksimum səviyyədə reallaşdırılmasına şərait yaradır və onun qabiliyyətləri, psixofizioloji xüsusiyyətləri və təhsil ehtiyaclarından asılı olmayaraq bütün şagirdlərin təhsil prosesində fəal iştirakını təmin edir. Nəticə etibarilə inklüziv təhsil modeli təhsilalanların uğurlu sosiallaşmasına, cəmiyyətə inteqrasiyasına və bərabər təhsil imkanlarının təmin olunmasına mühüm töhfə verir.

İnklüziv təhsildə gələcək müəllimlərin əməkdaşlıq bacarıqlarının inkişaf etdirilməsi bütün təhsilalanların uğurla öyrənə və inkişaf edə biləcəyi effektiv təhsil mühitinin yaradılması üçün çox vacibdir. Əməkdaşlıq müəllimlərə xüsusi təhsil ehtiyacı olan uşaqlara hərtərəfli dəstək verməklə təcrübə, bilik və texnikaları bölüşməyə imkan verir. Digər tərəfdən inklüziv təhsil mühitində gələcək müəllimlərin sağlamlıq imkanları məhdud olan şagirdlərlə səmərəli və peşəkar qarşılıqlı əlaqə qurmağa hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bu hazırlıq prosesi onların pedaqoji, psixoloji və kommunikativ bacarıqlarının məqsədyönlü şəkildə formalaşdırılmasını, eləcə də inklüziv təhsil prinsiplərinə əsaslanan praktik fəaliyyətə hazır olmalarını təmin etməlidir.

İnklüziv təhsil mühiti gələcək müəllimlərin peşəkar səriştələrlə təmin olunmasında mühüm rol oynayır. Belə bir mühit gələcək müəllimlərin pedaqoji, psixoloji və sosial kompetensiyalarının sistemli şəkildə formalaşdırılmasına, onların müxtəlif təhsil ehtiyaclarına malik şagirdlərlə effektiv qarşılıqlı əlaqə qurmaq bacarıqlarının inkişaf etdirilməsinə şərait yaradır. Eyni zamanda inklüziv təhsil mühiti gələcək müəllimlərin humanist dəyərlərə əsaslanan peşəkar mövqeyinin möhkəmləndirilməsinə, diferensiallaşdırılmış təlim metodlarından istifadə bacarıqlarının və inklüziv təlim-tərbiyə fəaliyyətini təşkil etmək səriştələrinin inkişafına xidmət edir.

Müəllimin inklüziv səriştəsi onun peşəkar səriştəsinin tərkib hissəsidir və əsas məzmun və funksional səriştələrini özündə ehtiva edir. İnklüziv təhsildə müəllimin səriştələri aşağıdakı kimi müəyyən edilmişdir:

***diaqnostik*** *– inklüziv təhsil şəraitində şagird kollektivinin inkişaf səviyyəsinin, şəxsiyyətin inkişafının, ayrı-ayrı tələbələrin təlim və tərbiyəsinin, pedaqoji prosesin vəziyyətinin düzgün diaqnozunu qoymaq bacarığı;*

***proqnozlaşdırıcı*** *– inklüziv təhsil şəraitində müəyyən pedaqoji fəaliyyətlərin nəticələrini qabaqcadan görmək bacarığı;*

***konstruktiv*** *– diaqnostik məlumatlara adekvat olan məqsədləri (həm ümumi, həm də fərdi) qoymaq və sağlamlıq imkanları məhdud şagirdlərin müxtəlif təhsil ehtiyacları və müxtəlif formaları, metodları nəzərə almaqla öz tədris fəaliyyətini bacarıqla planlaşdırmaqla inklüziv təhsil şəraitində işləmək bacarığı;*

***təşkilati inklüziv*** *– təhsil şəraitində tədris fəaliyyətini təşkil etmək bacarığı, peşəkar fəaliyyətdə fərdi yanaşmanın yaradıcı tətbiqi (məsələn, fərdi təhsil marşrutu üzrə təlim);*

***kommunikativ*** *– inklüziv təhsilin səmərəli həyata keçirilməsinə töhfə verən pedaqoji prosesin subyektləri ilə konstruktiv əlaqələr qurmaq bacarığı;*

***texnoloji*** *– müxtəlif təhsil ehtiyacları və müxtəlif sağlamlıq imkanları məhdud olan uşaqlar üçün inklüziv təhsilin metod və texnologiyalarını həyata keçirtmək bacarığı;*

***korreksiyaedici aralıq və yekun diaqnostikanın*** *– nəticələrini nəzərə almaqla istənilən mərhələdə pedaqoji prosesin gedişatını düzəltmək bacarığı;*

***tədqiqat*** *– pedaqoji hadisələri öyrənmək, təhlil etmək və eksperimental iş aparmaq bacarığı.*

Uğurlu pedaqoji fəaliyyət üçün şərti pedaqoji hazırlıq tamamilə yetərli deyildir. Gələcək müəllim sağlamlıq imkanları məhdud olan uşaqlarla iş zamanı özünün bacarıqlarını inkişaf etdirməli və pedaqoji texnikada üslubu, tədris metodlarını təhlil etməyi bacarmalı, qarşılıqlı əlaqəni səmərəli qurmağı öyrənməlidir.

Gənc kadrların peşə hazırlığı prosesində əsas funksiyalardan biri, hətta ən vacibi əxlaqi tərbiyənin formalaşdırılmasıdır. Müasir cəmiyyətin tələblərinə uyğun olaraq əsl müəllimin şəxsiyyətində davamlı və sabit əxlaqi davranış normaları, yüksək mənəvi keyfiyyətlər və inkişaf etmiş əxlaqi hislər təşəkkül tapmalıdır. Bu keyfiyyətlər müəllimin peşəkar fəaliyyətində və

gündəlik davranışında öz əksini taparaq onun hərəkət və münasibətlərində cəmiyyət qarşısında məsuliyyət, sosial borc və vətəndaşlıq mövqeyinin formalaşmasına zəmin yaradır. Əxlaqi tərbiyə gələcək müəllimin humanist dəyərlərə əsaslanan fəal həyat mövqeyinin formalaşdırılmasını təmin etməklə yanaşı, onun təhsilalanlara, valideynlərə və həmkarlarına münasibətində etik davranış mədəniyyətini möhkəmləndirir. Nəticə etibarilə əxlaqi tərbiyənin sistemli və məqsədyönlü şəkildə həyata keçirilməsi gənc kadrların peşəkar səriştələrinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir və müəllim şəxsiyyətinin bütöv şəkildə inkişafına xidmət edir.

Gələcək müəllimlərin inklüziv təhsil sahəsində pedaqoji təcrübəyə yiyələnməsi və şəxsiyyətin formalaşmasının sistemli prosesi kimi aşağıdakı şəxsi xüsusiyyətləri vacib hesab etmək olar:

– *əməkdaşlıq mühitində təlimin fəaliyyətini təşkil etmək bacarığı;*

– *öz peşəkar davranışı üçün şüurlu şəkildə seçim etmək bacarığı;*

– *pedaqoji fəaliyyətin texnika və üsulları sistemini asanlıqla idarə etmək bacarığı;*

– *özünü inkişaf etdirmək üçün adekvat vasitə və üsulları seçmək istəyi və bacarığı.*

Gələcək müəllimin sağlamlıq imkanları məhdud olan uşaqlarla işi zamanı peşəkar hazırlığının formalaşmasına aksioloji yanaşması yüksək olmalıdır. Bu, o deməkdir ki, tələbənin universitetdə oxuduğu müddətdə (sonra isə davamlı özünütəhsil prosesində müəllim tərəfindən) əldə etdiyi bilik, bacarıq və vərdişlər yalnız bundan sonra inkişaf edir. Tolerantlıq – bizdən fərqli olanlarla qərəzsiz davranmaq bacarığı uşaqlıqda formalaşır. Araşdırmalara görə, uşağın xüsusi qayğıya ehtiyacı olan yaşıdlarına münasibəti ətrafındakı böyüklərin münasibətindən asılıdır. Valideynlər və ya müəllimlər tərəfindən sağlamlıq imkanları məhdud uşaqlara qarşı mehriban və hörmətli münasibətin olması olduqca vacibdir.

Gələcək müəllimlərin peşəkarlıq səviyyəsi kimi inklüziv təhsilə peşəkar hazırlığıda fərdin qarşılıqlı əlaqə subyektlərinə humanistyönümlü münasibətlər sisteminin məcmusu, qeyri-stereotip kimi tədris və təhsilə münasibəti ilə ifadə olunur. Burada fəaliyyət və özünüinkişaf (psixoloji hazırlıq), fundamental peşəkar nəzəri biliklər və əqli hərəkətlər toplusu (nəzəri hazırlıq); verilən tapşırıqlara (praktiki hazırlıq) uyğun olaraq məntiqi tamamlanmış pedaqoji sistemin layihələndirilməsi və həyata keçirilməsi bacarıqları (S.P.İvanov, N.V.Kuzmin, V.A.Slastenin təcrübəsində) ön plana çəkilir [14, s.124].

Peşə təhsilinin müasir pedaqogikasında gələcək müəllimin inklüziv təhsilə hazırlanmasının elementar məzmunu onu peşəkar səriştə ilə eyniləşdirir. Bunun əsasını onun fərdi xüsusiyyətləri təşkil edir:

– *fərdin müstəqil və məsuliyyətli hərəkət etməyə imkan verən psixi vəziyyəti;*

– *onun xüsusi təhsili, geniş ümumi və xüsusi erudisiyası, elmi və peşə hazırlığının daim təkmilləşdirilməsi;*

– *müxtəlif səviyyələrdə tapşırıqları yerinə yetirmək bacarığı;*

– *bilik və mənəvi məsuliyyətlə hərəkət etmək bacarığı;*

– *peşəkar fəaliyyətin uğurla həyata keçirilməsi üçün zəruri olan şəxsiyyət keyfiyyətləri sistemi;*

– *motivasiya;*

– *qabiliyyətlər;*

– *peşə bacarıqları, nəzəri və praktiki təcrübə.*

***Birinci istiqamətə*** uyğun olaraq gələcək müəllimin peşə səriştəsi “mahiyyəti pedaqoji fəaliyyətin səmərəli həyata keçirilməsinə imkan verən müəllimin pedaqoji biliyinin, təcrübəsinin və keyfiyyətlərinin birliyindən ibarət” sistemli bir hadisədir. Belə ki, gələcək müəllim pedaqoji ünsiyyət prosesini məqsədyönlü şəkildə təşkil edir və həm də onun şəxsi inkişafını və təkmilləşməsini nəzərdə tutur. Sağlamlıq imkanları məhdud olan uşaqlarla işləyən zaman gələcək müəllimin peşəkar səriştəsi onun inklüziv təhsil sahəsində qarşıdan gələn fəaliyyətləri yerinə yetirmək qabiliyyəti və hazırlığı ilə xarakterizə olunur.

***İkinci istiqamətdə*** gələcək müəllimin peşəkar səriştəsinin formalaşmasının psixoloji istiqaməti təhsilalanın münasibətinin və inklüziv təhsil sahəsində fəaliyyətə tam cəlb olunmaq, məlumatlı qərar qəbul etmək və stress testlərinə tab gətirmək qabiliyyətinin inkişafında müəyyən edilir. Müəllimin peşəkar səriştəsi “fəaliyyətdə subyektin yaradıcı qüvvələrinin və qabiliyyətlərinin ən yüksək dəyişkənliyi və maksimum cəlb

edilməsi" vəziyyətidir. Sağlamlıq imkanları məhdud olan uşaqlarla bu fəaliyyət növünün psixoloji hazırlıq strukturuna aşağıdakı komponentlər daxildir (E.L.Aqrafona, M.A.Alekseevna, S.V.Alyoxina təcrübəsində) [15, s.86]:

*– müxtəlif növ inkişaf pozğunluğu olan uşaqlarla iş;*

*– müxtəlif növ əlilliyi olan uşaqları sinif fəaliyyətlərinə (inklüziya) daxil etmək istəyi;*

*– öz pedaqoji fəaliyyətindən məmnunluq.*

***Üçüncü istiqamət*** nöqteyi-nəzərindən akmeoloji – gələcək müəllimin peşəkar səriştəsinin formalaşması onun tədris işinin yüksək səviyyəsinə doğru hərəkətinin addımlarını, mərhələlərini özündə ehtiva edir:

*– inklüziv təhsil sahəsində pedaqoji prosesin təşkilinin nəzəri, metodoloji və didaktik aspektlərinin ilkin mənimsənilməsi əsasında peşəkar səriştələrə yiyələnmə səviyyəsi;*

*– inklüziv təhsil sahəsində qabaqcıl psixoloji-pedaqoji təcrübənin ən yaxşı nümunələri ilə pedaqoji prosesin keyfiyyətli təşkilinin bacarığı kimi peşəkar səriştələrin fərdiləşdirilməsi səviyyəsi;*

*– müəllimin peşəkar özünü reallaşdırma səviyyəsi, peşə vasitələri ilə şəxsi özünüinkişafda inklüziv təhsilin imkanlarından xəbərdar olması, özünün ən yaxşı keyfiyyətlərini təkmilləşdirmək, mənfi cəhətləri hamarlaşdırmaq, öz müqəddəratını təyin etmək, pedaqoji prosesin təşkilində öz üslubunu inkişaf etdirmək səviyyəsi.*

*– fərdi tapşırıqlara, üsullara, vasitələrə, metodlarla prosesin təşkili formalarına, həm də yeni pedaqoji bacarıqların yaradılmasına aid orijinal təkliflər vermək əsasında inklüziv təhsil sahəsində müəllimin peşə təcrübəsinin yaradıcılıqla zənginləşdirilməsi səviyyəsi [9, s.228].*

Gələcək müəllimlərin inklüziv təhsil sahəsində peşə hazırlığının strukturu nöqteyi-nəzərindən onların öz pedaqoji vəzifələrini səmərəli yerinə yetirməyə hazır olması təmin edilir. Bunlara aşağıdakılar daxildir:

*– pedaqoji fəaliyyət haqqında fikir;*

*– fərdin ümumi mədəni səviyyəsi;*

*– koqnitiv və evristik qabiliyyətlər;*

*– əmək fəaliyyətinin istiqamətləri;*

*– informasiyavermə bacarıqları;*

*– işgüzar və şəxsiyyətlərarası münasibətlərdə səriştələr;*

*– özünütəkmilləşdirmə və özünüinkişafetdirmə səriştəsi qabiliyyətləri.*

Buradan belə nəticəyə gəlmək olar ki, gələcək müəllimlərin inklüziv təhsil sahəsində peşəkar səriştəsinin inkişaf etdirilməsi prosesi onların nəzəri və praktiki təcrübəyə yiyələnmə səviyyələri ilə müəyyən edilir. Gələcək müəllimlərin nəzəri hazırlığı onun psixoloji, pedaqoji, xüsusi, metodiki bilikləri ilə xarakterizə olunur ki, bu da intellektual və praktiki bacarıqların ilkin şərtidir. Pedaqoji hazırlıq təhsilalanlarla işin təşkilinin məqsədləri, qanunauyğunluqları, prinsipləri, şərtləri, vasitələri, formaları və metodları haqqında məlumatlılığa əsaslanan praktiki hərəkətlərin məcmusu olan bacarıqları ehtiva edir. Bacarıqların üç qrupu vardır:

*– tapşırıqların qoyulması və vəziyyətlərin təşkili ilə bağlı olanlar;*

*– təsir və qarşılıqlı təsir üsullarından istifadə etməklə;*

*– pedaqoji özünütəhlildən istifadə etməklə.*

Pedaqoji məharətin mahiyyəti gələcək müəllimin praktiki hazırlığının formalaşmasında nəzəri biliklərin aparıcı rolunu, nəzəri və praktiki hazırlığın vəhdətini, pedaqoji bacarıqların çoxsəviyyəli (reproduktivdən yaradıcılığa) xarakterini və mümkünlüyünü vurğulayır. Gələcək müəllimlərin inklüziv təhsil üzrə peşəkar səriştəsinin formalaşması nəzəri (analitik, proqnoz, proyektiv, əksetdirmə) və praktiki (məlumat, inkişaf, oriyentasiya, qavrama) bacarıqların inkişafı ilə müəyyən edilir. Gələcək müəllimin inklüziv təhsil sahəsində peşəkar hazırlığına aşağıdakılar daxildir:

*– inklüziv təhsil mühitində sağlamlıq imkanları məhdud uşaqların yaşını, fərdi inkişaf və formalaşma xüsusiyyətlərini nəzərə alaraq tədrisin psixoloji-pedaqoji qanunauyğunluqlarını, prinsiplərini və mexanizmlərini bilmək;*

*– əlilliyi olan uşaqların və onların normal inkişaf edən həmyaşıdlarının inkişafı üçün təhsil təşkilatında korreksiya və inkişaf mühiti yaratmaq;*

*– fəaliyyəti təşkil etməyi və əlaqələndirməyi, iştirak etməyi bacarmaq;*

*– xüsusi sağlamlıq ehtiyacı olan uşaqlar üçün fərdi təhsil proqramlarının hazırlanması prosesində fənlərarası mütəxəssislər qrupunun işində iştirak etmək;*

*– tətbiq edilən təsirlərdən asılı olaraq xüsusi sağlamlıq imkanları məhdud olan uşağın vəziyyətində və inkişafında dəyişikliklərin dinamikasını proqnozlaşdıra bilmək;*

*– sağlamlıq imkanları məhdud və sağlam uşaqların birgə təlimi üçün tədris prosesini, onun didaktik məzmununu tərtib etməyi bacarmaq;*

*– tərbiyə prosesinin bütün subyektləri arasında pedaqoji qarşılıqlı əlaqənin müxtəlif üsullarını mənimsəmək;*

*– müxtəlif növ inkişaf məhdudiyyəti olan uşaqlarla birgə fərdi fəaliyyət təşkil etmək;*

*– hər bir uşağın ehtiyac və imkanlarını müəyyən etmək;*

*– diaqnostik-korreksiya və inkişaf problemlərinin həllinə yönəlmiş tövsiyə olunan metod və texnologiyaları tətbiq etmək;*

*– inklüziv təhsil sahəsində peşəkar özünütəhsili həyata keçirmək.*

Zamanın tələbləri müəllimlərdən tədqiqat bacarıqlarını mənimsəməyi tələb edir. Müəllim təhsildə baş verən dəyişiklikləri idarə edən və dəyişkən şəraitdə fəaliyyət göstərən şəxs kimi pedaqoji fəaliyyətin strukturunda elmi, metodiki və tədqiqat elementlərinin sayını artırmalı, yeni pedaqoji praktikaların yaradılması və onların elmi əsaslandırılmasını təmin etməlidir. Müəllimin özünü analiz etmək və layihə fəaliyyətində iştirak etmək qabiliyyətinin inkişafı isə tədqiqat bacarıqlarının formalaşmasında mühüm istiqamət hesab olunur. Bu səbəbdən də gələcək müəllimlər inklüziv siniflərdə işləmək bacarığına yiyələnməlidirlər.

**Nəticə.** Beləliklə, təhlillərdən belə nəticəyə gəlmək olar ki, sağlamlıq imkanları məhdud olan uşaqlarla işləməyi bacaran mütəxəssis olmaq üçün gələcək müəllim təkcə pedaqogika və psixologiyanı deyil, həm də sosial-mədəni sahəni bilməlidir. Ali təhsil müəssisəsinin işinin səmərəliliyi və keyfiyyəti, ilk növbədə, məzunun peşə hazırlığı standartının tələblərinə nə dərəcədə real cavab verməsi ilə müəyyən edilir. Müasir elmi tədqiqatlarda təcrübəsiz müəllimin peşə hazırlığının formalaşdırılması və onun bütün hazırlığının peşəkar və pedaqojiyönümlü olması ilə bağlı məsələlərə böyük diqqət yetirilir. Ümid edirik ki, bu da mütəxəssis hazırlığında öz müsbət nəticəsini verəcəkdir.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycanda inklüziv təhsilin vəziyyətinə dair araşdırma sənədi. Bakı, 2018, 19 s.

2. BMT-nin “Əlillərin hüquqları haqqında” Konvensiyasının icrasına dair Azərbaycan Respublikasında ilk hesabatı. Yanvar, 2011.

3. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiya (BMT), 2006.

4. Hüseynova N.T. İntellektual inkişafı ləngiyən uşaqların pedaqogikası (dərs vəsaiti). Bakı, “ADPU” nəşriyyatı, 2017, 243 s.

5. İnklüziv siniflərdə təlimin təşkili (oxu materialı). Bakı, 2018, 68 s.

6. Qasımov S., Kərimova E. və b. İnklüziv təhsil (müəllimlər, tərbiyəçilər, tibb işçiləri və psixoloqlar üçün dərs vəsaiti). Bakı, OKA Ofset, 2006, 168 s.

7. Qasımov S., Kərimova E. Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Bakı, “Çaşıoğlu” nəşriyyatı, 2004, 250 s.

8. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı, “Bilik” nəşriyyatı, 2012, 240 s.

9. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil (sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təməllər). “İdeal Print” nəşriyyatı, 2020, 309 s.

10. Məhərrəmova Y.T. Uşaqlarda psixoloji problemlər və onların həlli yolları. Bakı, 2010, 64 s.

11. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu. 2001.

12. Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü. İnklüziv təhsil (məktəbəqədər təhsil pilləsi üçün). Bakı, 2010, 230 s.

13. Şəfiyeva E.İ. Anomal inkişafın psixologiyası. Bakı, “ADPU” nəşriyyatı, 2012. 145 s.

14. Ахметова Д.З., Нигматов З.Г., Челнокова Т.А., Юсупова Г.В. и др. Педагогика и психология инклюзивного образования (учебное пособие). Казань: изд-во «Познание» Института экономики, управления и права, 2013, 340 с.

15. Большанина Л.В., Грибукова О.Г. Профессиональная готовность будущих педагогов к работе в системе инклюзивного образования. Современные проблемы науки и образования. 2020, №5.

16. Жук О.Л. Педагогическая подготовка студентов: компетентностный подход. Минск, ВИВШ, 2009, 336 с.

S.Jafarova

## Formation of professional competencies of future specialists in an inclusive educational environment

**Abstract**

The article investigates the preparedness of future teachers to work with children with special educational needs and emphasizes that the development of professional competencies in this area is a priority for both society and the state. Inclusive education ensures the integration and socialization of these children into the school system. Acquiring high professional competencies while working in inclusive classrooms requires future specialists to possess both theoretical knowledge and practical skills. This includes mastering individualized approaches, adapting curricula in accordance with inclusive principles, and implementing strategies that support children's social and emotional development. The ultimate goal of ensuring high professional training for future teachers should not be limited merely to creating favorable conditions for students to acquire pedagogical knowledge. This process should also purposefully foster their creative potential, innovative thinking, and the ability to propose new pedagogical ideas. The article substantiates the technologies and methodological approaches applied in working with children with special educational needs and notes that the preparedness of future professionals for working in inclusive classrooms plays a crucial role in creating an inclusive educational environment.

С.Джафарова

## Формирование профессиональной компетентности будущих кадров в условиях инклюзивной образовательной среды

**Аннотация**

Статья исследует готовность будущих педагогов к работе с детьми с особыми образовательными потребностями и подчеркивает, что развитие профессиональных компетенций в этой области является приоритетом как для общества, так и для государства. Инклюзивное образование обеспечивает интеграцию и социализацию таких детей в школьную систему. Для приобретения высоких профессиональных компетенций при работе в инклюзивных классах будущие специалисты должны обладать как теоретическими знаниями, так и практическими навыками. Это включает освоение индивидуализированных подходов, адаптацию учебных программ в соответствии с принципами инклюзии, а также применение стратегий, поддерживающих социальное и эмоциональное развитие детей. Конечная цель обеспечения высокого уровня профессиональной подготовки будущих педагогов не должна ограничиваться лишь созданием благоприятных условий для усвоения учащимися педагогических знаний. Этот процесс также должен целенаправленно развивать их творческий потенциал, инновационное мышление и способность предлагать новые педагогические идеи. В статье обосновываются технологии и методические подходы, применяемые при работе с детьми с особыми образовательными потребностями, и отмечается, что готовность будущих специалистов к работе в инклюзивных классах играет ключевую роль в формировании инклюзивной образовательной среды.